# Fərqli Fərdlər

XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN İNSANLAR ÜÇÜN KONQRES

## XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN İNSANLAR ÜÇÜN 4-CÜ KONQRES

5 MART
2022

BAKI, AZƏRBAYCAN

**ONLAYN FORMATDA**

Təşkilatçılar

ceo caspian event organisers

Edutainment.az

www.ferqliferdler.az #ferqliferdler

# Fərqli Fərdlər

XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN İNSANLAR ÜÇÜN KONQRES

Bu genişmiqyaslı hadisə fərqli inkişaf özəllikləri olan insanların müsbət təcrübəsinə töhfə verən və həyat keyfiyyətini yaxşılaşdıran inklüziv cəmiyyətin yaradılması, inkişafı və genişləndirilməsi sahəsində ən aktual istiqamətləri müzakirə etmək üçün valideyn, mütəxəssis, müəllim və psixoloqları hər il bir arada toplayır.

Artıq 4-cü ildir ki, konqresin təşkilində fərqli inkişaf özəllikləri olan insanlar da fəal iştirak edirlər. Belə ki, "Fərqli Fərdlər" konqresinin prodüseri "Autistic city" ASP diaqnozlu insanlara dəstək mərkəzinin rəhbəri autizm diaqnozlu Antonina Steynberqdir.

"Fərqli Fərdlər" Konqresində inkişaf pozuntuları sahəsində mövcud olan ən son innovasiya, təmayül və problemlər, habelə çətinliklər və praktiki həll variantları müzakirə edilir. Bu il konqres çərçivəsində fərqli mövzuda məsələlər - xüsusi qayğıya ehtiyacları olan insanlar ilə bağlı ailədaxili münasibətlər, təhsil, könüllülük və təcrübə proqramları, inklüziv məşğulluq və perspektivlər, tibbi xidmətin əlçatanlığı və keyfiyyəti, eləcə də mütərəqqi texnologiyalar və onlayn xidmətlər işıqlandırıldı. İlk dəfə olaraq, valideynlərin istəyi ilə konqresdə Uşaq Serebral İflici (USİ) məsələsinə də toxunuldu.

Konqresin hər bir sessiyası videolentə alınaraq aşağıdakı veb-səhifələrə yüklənib və arzu edən hər kəs həmin sessiyalardan pulsuz faydalana bilər.

**Siz də abunə olun və bildirişlər alın:**

https://ferqliferdler.az/az-multimedia/39.html

https://www.facebook.com/ferqliferdlercongress

https://www.youtube.com/channel/UCJoZrj7Vi5NreAk1Qhq1aiA


RƏSMİ DƏSTƏK

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

HEYDƏR ƏLİYEV FONDU

HEYDƏR ƏLİYEV MƏRKƏZİ

İCBARİ TİBBİ SIĞORTA

KOBİA

DOST

Sosial Xidmətlər Agentliyi

RİİB Regional İnkişaf İctimai Birliyi

TƏŞKİLATÇILAR

ceo caspian event organisers

Edutainment.az

BAŞ TƏRƏFDAŞ

bp

GÜMÜŞ SPONSOR

pmd

BÜRÜNC SPONSOR

Holcim Azərbaycan

TƏRƏFDAŞLAR

CREDO GROUP

translation

AZ EXPO MONTAGE

black & black studio

# AÇILIŞ MƏRASİMİ

**MARTIN 5-DƏ HEYDƏR ƏLİYEV MƏRKƏZİNDƏ KONQRESİN HİBRİD FORMATINDA RƏSMİ AÇILIŞ MƏRASİMİ KEÇİRİLDİ.**

## AŞAĞIDAKI ŞƏXSLƏR ÖZ VİDEO-MÜRACİƏTLƏRİNDƏ KONQRES İŞTİRAKÇILARINI SALAMLADILAR:



### Zaur Əliyev
İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri



### Anar Kərimov
Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini



### Hicran Hüseynova
Azərbaycan Respublikası Milli Məclisinin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, Milli Deputatı



### Səbinə Əliyeva
Azərbaycanlı Dövlət və Siyasi xadim. Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili



### Soltan Məmmədov
Heydər Əliyev Fondunun Beynəlxalq əlaqələr Departamentinin rəisi, Milli Məclisin deputatı



### Ceyran Rəhmətullayeva
Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin aparat rəhbəri



### Bəxtiyar Aslanbəyli
bp şirkətinin Xəzər regionunda kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti



### Fərid Məmmədov
"Caspian Event Organisers" şirkətinin baş direktoru



# VİP QONAĞLARIN RƏYLƏRİ



"Hörmətli konqres iştirakçıları, hər birinizi salamlayır və 4-cü Fərqli Fərdlər konqresinin işinə uğurlar arzulayıram. Cəmiyyətin diqqətini xüsusi qayğıya ehtiyacı olan insanlara, xüsusən də uşaqlara yönəltmək məqsədi ilə hər il təşkil olunan konqres təqdirə layiqdir!"

**Zaur Əliyev,**
İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri

---



"Xüsusi qayğıya ehtiyacı olan insanlara diqqət və qayğının artırılması məqsədi ilə belə bir gözəl konqresin təşkili çox önəmlidir. Son illər ərzində bu əhəmiyyətli konqres mütəmadi olaraq keçirilir və öz əhatəsini genişləndirir."

**Anar Karimov,**
Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini

---



"Bu 4-cü konqresdir və yaradılan gündən bu platforma maraqlı tərəfləri cəlb edə bilmiş və xüsusilə də valideyn və onların övladları üçün mühüm töhfə vermişdir. Tədbirin keçirilməsində göstərdikləri dəstəyə görə bütün təşkilatçılara, zəhməti olan hər kəsə öz təşəkkürümü bildirirəm."

**Hicran Hüseynova,**
Azərbaycan Respublikası Milli Məclisinin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri,
Milli Deputatı

---



"Xüsusi qayğıya ehtiyacı olan insanlara həsr edilmiş 4-cü "Fərqli Fərdlər" konqresinin işində iştirakla bağlı dəvətə görə təşkilatçılara öz təşəkkürümü bildirirəm. Xüsusi qayğıya ehtiyacı olan insanların cəmiyyət içərisində olmaları, sosial ünsiyyət qurmaları, ictimaiyyətin həmin insanları olduqları kimi qəbul etmələri üçün ictimai maarifləndirmə tədbirlərinin həyata keçirilməsi olduqca vacibdir. Sizə nəcib və məsuliyyətli işinizdə uğurlar arzulayıram."

**Səbinə Əliyeva,**
azərbaycanlı dövlət və siyasi xadim, Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili

# VİP QONAĞLARIN RƏYLƏRİ



“Fərqli Fərdlər” konqresinin işində hər birinizə uğurlar arzulayıram. Heydər Əliyev Fondu xüsusi qayğıya ehtiyacı olan uşaqlarla bağlı beynəlxalq səviyyədə keçirilən tədbirlərdə də iştirak edir.

**Soltan Məmmədov,**
Heydər Əliyev Fondunun Beynəlxalq əlaqələr Departamentinin rəisi,
Milli Məclisin deputatı

---



“Bu cür konfransların önəmi ondan ibarətdir ki, insanların, cəmiyyətin və mütəxəssislərin, qərar verici orqanların, siyasətçilərin fikrini diqqətini bu məsələlərə bir daha yönəltməkdir. Və ən əsası isə fərqli fərdlər üçün inklüziv cəmiyyət yaratmaqdır.”

**Ceyran Rəhmətullayeva,**
Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə
Dövlət Komitəsinin aparat rəhbəri

---



“2019-cu ildən başlayan və hər il baş tutan Fərqli Fərdlər konqresi artıq xoş ənənəyə çevrilib və biz də çox şadıq ki, ilk gündən biz də bu təşəbbüsə qoşulmuşuq və öz kiçik töhfəmizi veririk və bununla həqiqətən qürur duyuruq.”

**Bəxtiyar Aslanbəyli,**
bp şirkətinin Xəzər regionunda kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti

---



“Ənənəvi tədbirlərimiz sırasında yer alan bu konqres bir çox uğura imza atıb və bu il artıq 4-cü dəfə keçirilən “Fərqli Fərdlər” konqresinin gördüyü mühüm işlər danılmazdır.”

**Fərid Məmmədov,**
“Caspian Event Organisers” şirkətinin baş direktoru

# KONQRESİN DİNLƏYİCİLƏRİ

## KONQRES DİNYƏYİCİLƏRİN ÜMUMİ SAYİ:

**898 nəfər**

## O CÜMLƏDƏN:

- XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN UŞAQLARIN VALİDEYNLƏRİ
- EKSPERTLƏR (psixoloqlar, psixoterapevtlər, psixoloji mərkəzlərin rəhbərləri, aparıcı məktəblərin direktorları, müəllimlər)
- XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN İNSANLAR
- DÖVLƏT QURUMLARININ NÜMAYƏNDƏLƏRİ
- KİV NÜMAYƏNDƏLƏRİ

## KONQRESİN SPİKERLƏRİ 9 ÖLKƏNİ, O CÜMLƏDƏN:

- Azərbaycan
- Danimarka
- İsrail
- Rusiya
- ABŞ
- Türkiyə
- Ukrayna
- Latviya
- Yunanıstan

## KONQRESİN PROQRAMI 5 SESSİYA VƏ XÜSUSİ QONAĞIN İŞTİRAKI BİR ƏLAVƏ TƏDBİRDƏN İBARƏT İDİ:

**SESSİYA I**

Xüsusi insanların həyatının xüsusiyyətləri

**SESSİYA II**

İnkişaf xüsusiyyətləri - rifah amili kimi ailə dəstəyi

**SESSİYA III**

Xüsusi ehtiyaclar nəzərə alınmaqla səhiyyə xidmətinin əlçatanlığı və keyfiyyəti

**SESSİYA IV**

Xüsusi qayğıya ehtiyacı olan insanlar üçün təhsil və karyera

**SESSİYA V**

Xüsusi qayğıya ehtiyacı olan insanlar üçün qabaqcıl texnologiyalar və onlayn servislər

**TƏDBİRİN XÜSUSİ QONAĞI**

Yelisey Osin

# KONQRESİN SPİKERLƏRİ:



**Antonina Steynberq**

“Fərqli Fərdlər” Konqresinin prodüseri, autizmli insanlara “Autistic city” dəstək mərkəzinin rəhbəri, autizmli şəxs



**Tatyana Mikayılova**

“Fərqli Fərdlər” Konqresinin moderatoru, sahibkar, Azərbaycan

## SESSİYA I: XÜSUSİ İNSANLARIN HƏYATININ XÜSUSİYYƏTLƏRİ



**Nərmin Fərzəliyeva**

Bloger, xüsusi qayğıya ehtiyacı olan uşağın valideyni, Azərbaycan



**Yevgeniy Şvedovskiy**

Moskva Dövlət Psixologiya və Təhsil Universitetinin ASP sindromlu uşaqlara kompleks dəstəyinin təşkili üzrə Federal resurs mərkəzinin metodisti, “Psixi sağlamlıq” Elmi mərkəzinin Tibbi psixologiya şöbəsinin kiçik elmi işçisi, neyropsixoloq, Müqəddəs Luka adına Sağlamlıq və İnkişaf Mərkəzi, Rusiya



**Banu Koç Çakan**

Maltepe universitetində mühaziraçi-müəllim, biznes psixologiyası, emosiya və davranış elmi üzrə təlimçi, yüksək səviyyəli menecerlərə mentor, Türkiyə Sahibkar Qadınlar Dərnəyinin (KAGİDER) üzvü,Türkiyə Beynəlxalq Məşqçilər Federasiyasının (İCF) peşəkar təlimçisi, "BCC-Türkiyə" şirkətinin qurucusu, Türkiyə



**Viktoriya Gerşkoviç**

Psixoterapevt, art-terapevt, İsrail



**Albert Feygelson**

Davranış üzrə analitik, Maariflənidirici psixologiya üzrə humanitar elmlər magistri, İsrail

## SESSİYA II: İNKİŞAF XÜSUSİYYƏTLƏRİ - RİFAH AMİLİ KİMİ AİLƏ DƏSTƏYİ



**Nurlana Əliyeva**

İnsan Resursları üzrə mütəxəssis, xüsusi qayğıya ehtiyacı olan uşağın valideyni, Azərbaycan



**Albert Feygelson**

Davranış üzrə analitik, Maariflənidirici psixologiya üzrə humanitar elmlər magistri, İsrail



**Dr. Öğrt. Üyesi Mine Akkaynak**

Dosent, Xüsusi təhsil şöbəsinin rəhbəri, “Maneəsiz həyat” mərkəzinin müdiri, İstanbul Aydın Universiteti, Türkiyə

# KONQRESİN SPİKERLƏRİ:



**Katerina Markova**

Psixoloq, koqnitiv-davranış terapevti, "ANIMAGO" şirkətinin (uşaqlara psixoloji yardım innovativ internet platformasının) həmtəsisçisi, Rusiya



**Ayşən Məmmədzadə**

Psixoloq, ABA mütəxəssis, Azərbaycan

## SESSİYA III: XÜSUSİ EHTİYACLAR NƏZƏRƏ ALINMAQLA SƏHİYYƏ XİDMƏTİNİN ƏLÇATANLIĞI VƏ KEYFİYYƏTİ



**Anna Portnova**

Tibb elmləri doktoru, psixiatr, V. P. Serbski adına "Rusiya Səhiyyə Nazirliyinin Milli Tibbi Elmi-Tətqiqat Psixiatriya və Narkologiya mərkəzi"Federal Dövlət Müəssisəsinin Uşaq və yeniyetmə psixiatriyasının klinik və patogenetik problemləri şöbəsinin müdiri", Sübutlara əsaslanan təcrübə üzrə psixiatrlar və psixoloqlar assosiasiyasının prezidenti, Rusiya



**Məryam Həmzəyeva**

Klinik psixoloq, baş psixoloq - "Aydın Səhər" xidmətinin mütəxəssisi, Azərbaycan – Rusiya



**Bənövşə Yusifova**

"Qayğı" reabilitasiya mərkəzinin direktoru, Azərbaycan



**Lennart Sander**

20 yaşlı Bertramın atası, Danimarka



**Fidan İsazadə**

Serebral iflic (Sİ) sindromlu uşaq bloger, Azərbaycan

## SESSİYA IV: XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN İNSANLAR ÜÇÜN TƏHSİL VƏ KARYERA



**Barbara Bissonnett**

"İrəli hərəkət üzrə təlimçi" ("Forward Motion Coaching") cəmiyyətinin rəhbəri, Asperger/Autizmli şəxslər üçün karyera inkişaf üzrə təlimat, Valideynlər və peşəkarlar üçün təlim və məsləhətlər, AbŞ



**Vladislav Malaşenko**

"Good Bread from Good People" qənnadı məmulatlarının təsisçisi, Ukrayna

# KONQRESİN SPİKERLƏRİ:



**Ayşən Məmmədzadə**

Psixoloq, ABA mütəxəssis, Azərbaycan



**Şirin Məlikova**

Azərbaycan Milli Xalça Muzeyinin direktoru, ICOM Azərbaycan Milli Komitəsinin sədri, Əməkdar mədəniyyət işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan

## SESSİYA V: XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN İNSANLAR ÜÇÜN QABAQCIL TEXNOLOGİYALAR VƏ ONLAYN SERVİSLƏR



**Mixalis Mosxos**

Microsoft şirkətinin Mərkəzi Şərqi Avropa üzrə Marketinq Əməliyyatları Başçısı, Yunanıstan



**Katerina Markova**

Psixoloq, koqnitiv-davranış terapevti, “ANIMAGO” şirkətinin (uşaqlara psixoloji yardım innovativ internet platformasının) həmtəsisçisi, Rusiya



**Martins Zalans**

BUGADDY-nin baş direktoru, Latviya



**Emin Axundov**

Microsoft Azərbaycan, Təhsil Programları Meneceri, Azərbaycan



**Yelisey Osin**

Tədbirin xüsusi qonağı. "DocDeti” klinikasında həkim-psixiatr, Psixiatr və psixoloqların elmi əsaslı təcrübə naminə assosiasiyasının təsisçisi, Rusiya





# SPİKERLƏRİN RƏYLƏRİ



«Hörmətli Konqress təşkilatçıları!
Sizə dərin minnətdarlığımı bildirirəm, çox gözəl səviyyədə konqres keçirilib, bu önəmli mövzuda bu cür görüşlərin keçirilməsi olduqca vacibdir.
Sizə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram!»

**Şirin Məlikova,**
Azərbaycan Milli Xalça Muzeyinin direktoru,
ICOM Azərbaycan Milli Komitəsinin sədri,
Əməkdar mədəniyyət işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru,
dosent, Azərbaycan

---



"Konqres əla təşkil olunub, burada maraqlı mühazirələr səslənir və təcrübə mübadiləsi aparmaq fürsəti var."

**Viktoriya Gerşkoviç,**
Psixoterapevt, art-terapevt

---



"Mən geniş və güclü bir ölkədə yaşayıram. Bu il isə başqa bir ölkəni kəşf etdim və bu, Bakı (Azərbaycan) və "Fərqli Fərdlər" Konqresidir! Burada xeyirxah işlər görürlər və insan xüsusi qayğıya ehtiyacı olan uşaqların valideynləri və onlara kömək edən mütəxəssislər üçün təşkil olunan bu xoşbəxtlik festivalının bir hissəsi olmaq istəyir. Məni dəvət etdiyiniz üçün hamınıza minnətdaram və sizə işlərinizdə uğurlar diləyirəm! ".

**Albert Feygelson,**
Davranış üzrə analitik, Maarifləndirici psixologiya üzrə humanitar elmlər magistri

# REKLAM KAMPANİYASI









# KONQRESİN NAİLİYYƏTLƏRİ

**YARANDIĞI MÜDDƏT ƏRZİNDƏ "FƏRQLİ FƏRDLƏR" KONQRESİ DÖVLƏT QURUMLARININ VƏ SPONSORLARIN DƏSTƏYİ SAYƏSİNDƏ BİR SIRA KONKRET NƏTİCƏLƏRƏ NAİL OLUB:**

1. Konqresin təşkilatçıları Bakı şəhərindəki Heydər Əliyev Beynəlxalq hava limanında xüsusi qayğıya ehtiyacı olan insanlar üçün əlçatan mühitin yaradılması üzrə proqramın tətbiqi barədə təşəbbüslə çıxış ediblər. Hava limanının rəhbərliyi bu proqrama dəstək verərək layihəni reallaşdırıb. Bakı hava limanı dünyanın ən müasir hava limanlarından biridir və çoxsaylı beynəlxalq sertifikatlar da bunu təsdiq edir. Artıq burada "görünməyən" məhdudiyyəti – autizm, Demensiya və Altsheymer xəstəliyi olan insanlar üçün də xidmətlər mövcuddur. Bu xidmətlərin sayəsində xüsusi qayğıya ehtiyacı olan sərnişinlər üçün uçuşlar daha rahat və az həyəcanlı olub. Gizli əlilliyin beynəlxalq simvolu olan sarı günəbaxan naxışlı lanyardlar tətbiq edilib.

2. Təşkilat komitəsinin təşəbbüsü ilə Toni Ettvudun "Asperger sindromu üzrə tam təlimat" kitabı rus dilinə tərcümə edilib. Kitabın tərcüməsi və nəşri layihəsinin üzərində işləyən bütün komanda fərqli inkişaf xüsusiyyətləri olan insanlardan ibarətdir. Beləliklə, tərcümə ilə Asperger sindromu olan insanlar - Antonina Steynberq və Aleksey Voskov məşğul olublar. Nəşrin korrektoru- "Rus dili və ədəbiyyatı" üzrə filoloq, filologiya elmləri namizədi, Asperger sindromlu oğlanın anası - Vera Jibuldur. Kitabın cild dizaynının müəllifi autizmli Ayşə Məmmədlidir. Kitab 1000 tirajla nəşr olunub.

3. "Fərqli Fərdlər" konqresi zamanı 300-dən artıq şəxs diaqnostikadan keçmişdir. İştirakçılar beynəlxalq mütəxəssislərdən ödənişsiz məsləhətlər alıb, xüsusi qayğıya ehtiyacı olan fərdlərin yaxınlarının təcrübəsini görüb və çıxışlarını izləyiblər. Xarici spikerlər tədbirdən sonra da yerli mütəxəssislərlə sıx əməkdaşlıq edir. Bundan əlavə, "Fərqli Fərdlər" tədbiri xüsusi maarifləndirici proqramın hazırlanmasına təkan vermişdir.

4. Konqres yeni yaradıcı layihələrin reallaşmasına səbəb oldu: yalnız xüsusi qayğıya ehtiyacı olan insanlardan ibarət bir çox uşaq bədii kollektivlərinə çıxış etmək imkanı verdi, autizm spektr pozuntusu olan gənc qızın ssenarisi əsasında "Zaman maşını" uşaq tamaşası nümayiş etdirildi.

5. Azərbaycanın "BUTALI" zərgərlik brendinin "DOSTUM" adlı ilk uşaq və gənc kolleksiyasının dizayneri də autizmli qızdır.

6. Autizmli uşaqların valideynləri üçün xüsusi dəstək klubu fəaliyyət göstərir. Klub üzvləri hər ay toplaşaraq təhsil, təlim tərbiyə, uşaqların gələcəyi mövzusunda müzakirələr aparır və bir birilərinə dəstək olurlar.

**BİZ İRƏLİLƏYİRİK VƏ ƏMİNİK Kİ, GƏLƏN İL DƏ KONQRESİN NÖVBƏTİ NAİLİYYƏTLƏRİNİ SİZƏ TƏQDİM EDƏCƏYİK!**

# KONQRES ZİYARƏTÇİLƏRİNİN RƏYLƏRİ

"KONQRESİ TƏŞKİL ETDİYİNİZ ÜÇÜN MİNNƏTDARAM. BU MÖVZUDA KONQRESLƏRİN TEZ-TEZ KEÇİRİLMƏSİNİ ARZU EDİRƏM."

**Şəfəq Yusifli**

"BU CÜR GÖZƏL KONQRES TƏŞKİL ETDİYI ÜÇÜN, ƏMƏYİ KEÇƏN HƏR KƏSƏ SONSUZ TƏŞƏKKÜRÜMÜ BİLDİRİRƏM."

**Aqşin Hüseynov**

"BU KONQRESDƏ ƏMƏYİ KEÇƏN HƏR KƏSƏ TƏŞƏKKÜRLƏR. BU QƏDƏR DƏYƏRLİ VƏ QİYMƏTLİ MƏLUMATLAR ƏVƏZSİZDİR. ÇOX SAG OLUN."

**Ülviyyə Zeynalova**

"KONQRESİN TƏŞKİLATÇILARINA VƏ İŞTİRAKÇILARA MARAQLI TÖVSİYYƏ VƏ MÜZAKİRƏLƏRƏ GÖRƏ SONSUZ TƏŞƏKKÜR EDİRƏM. BİLMƏDİYİM ÇOX MƏLUMATLAR ƏLDƏ ETDİM, YENİ BİLGİLƏRİMDƏN FAYDALANACAM. MİNNƏTDARAM."

**Fidan Rüstəmova**

"TƏLİM ÇOX FAYDALIDIR. TƏŞƏKKÜRLƏR TƏŞKİLATÇILARA. MƏNİM ÖVLADIM DA XÜSUSİ QAYĞIYA EHTİYACI OLANLARDANDIR, ÇOX DƏYƏRLİ BİLGİ ƏLDƏ ETDİM. ÇOX SAĞ OLUN."

**Mikayıl Qahramanov,**
Xüsusi inkişaf özəlliyinə mailk uşağın valideyni

# Fərqli Fərdlər

XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN İNSANLAR ÜÇÜN KONQRES
















Fərqli
Fərdlər
Shirin Melikova
BAŞ
TƏRƏFDAŞ
SESSİYANIN
SPONSORU
ərqli Fərdlər 2022




Nurlana Aliyeva
mine akkaynak
Albert Feigelson
Ayshan Mammadzada
Tatyana Mikayilova

Fərqli Fərdlər

XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN İNSANLAR ÜÇÜN KONQRES

# 4 MART 2023-cü

il tarixində görüşənədək!

# XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN İNSANLAR ÜÇÜN 5-Cİ YUBİLEY KONQRES

**www.ferqliferdler.az**

Tərəfdaşlıq və əməkdaşlıq məsələləri ilə əlaqədar məsul şəxsə müraciət etməyinizi xahiş edirik:


**Caspian Event Organisers LLC**
**mob: +994 12 404 1000 (ofis)**
**E-mail: congress@ceo.az**